- Damardan götürülən qan dərhal iynədən karta hopdurulmalıdır və heç bir digər qan toplayıcısına köçürülməməlidir.

- Hər hansı bir şəkildə saxlanılmış qan nümunəsi və ya serum-plazma nümunəsi karta hopdurulmalıdır.

- Kartın üzərindəki xüsusi dairələrə heç bir halda toxunmaq olmaz. Bu kartın süd, su, antiseptik və ya hər hansı bir maddə ilə təmasına imkan verilməməlidir.

- Nümunə hopdurulduqdan sonra filtr kağızı otaq temperaturunda üfüqi vəziyyətdə, ən azı 3 saat günəş şüalarının təsirindən uzaq, heç bir cisimlə təmasda olmadan açıq şəkildə qurudulmalıdır. Quruma prosesi zamanı xüsusi vasitələrdən istifadə olunmalıdır.

- Qurudulmuş nümunə qurudulduqdan sonra nəm şəraitdə saxlanılmadan polietilen paketlərə qoyulmalıdır.

- Qan nümunəsi tam quruduqdan sonra üzərində ünvan yazılmış kağız zərfin içinə qoyularaq, laboratoriyaya çatdırılmalıdır.



Referans
Klinik Laboratoriya Mərkəzi
&
Poliklinik

***0033**
ÇAĞRI MƏRKƏZİ

- **Referans Klinik Laboratoriya Mərkəzi:** Nərimanov ray., M.Məmmədzadə küç. 8A
- **Referans Poliklinik Nəsimi Filialı:** Nəsimi ray., M. Mirqasımov küç. 25A
- **Referans VIP Filialı:** Səbail ray., Z. Əliyeva küç. 107A
- **Referans Poliklinik Əhmədli Filialı:** Xətai ray., M. Hadi küç. 229D
- **Referans Poliklinik Mərdəkan Filialı:** Xəzər ray., Mərdəkan qəs., Yesenin küç. 58
- **Referans Poliklinik Bayıl Filialı:** Səbail ray., Ak. Ə. Yaqubov küç. 19
- **Referans Binəqədi Səyyar Qanalma Məntəqəsi:** (8-ci Stomatoloji Poliklinika)**:** Binəqədi ray., Azadlıq pr. 167
- **Referans Estetik Mərkəzi:** Nərimanov ray., M. Araz küç. 105A
- **Referans Bakıxanov Səyyar Qanalma Məntəqəsi:** Sabunçu ray., Bakıxanov qəs., S. Mehmandarov küç. ev.1
- **Referans Yasamal Filialı:** Yasamal ray., H.B.Zərdabi küç. 69D
- **Referans Xırdalan Tibb Mərkəzi:** Xırdalan şəh., H. Əliyev pr.167 (AAAF Park)
- **Referans Masazır Filialı:** Abşeron ray., Masazır kəndi, Ə.Vahid küç.798
- **Referans Sumqayıt Tibb Mərkəzi:** Sumqayıt şəh., Səməd Vurğun küç. 119
- **36.6 Med Referans Gəncə Filialı:** Gəncə şəh., Atatürk pr. 120B
- **Referans Qəbələ Tibb Mərkəzi:** Qəbələ şəh., Abbas Səhhət küç. 25A
- **Referans Quba Tibb Mərkəzi:** Quba şəh., Maksim Qorki küç.
- **Referans Qusar Filialı:** Qusar şəh., Məlikov küç. 1A
- **Referans Xaçmaz Tibb Mərkəzi:** Xaçmaz şəh., N.Nərimanov küç. 49 (keçmiş NK-AY klinikası)
- **Referans Masallı Tibb Mərkəzi:** Masallı ray., Qarabağ küç. 20
- **Referans Lənkəran Səyyar Qanalma Məntəqəsi:**
  -Lənkəran şəh., Zərifə Əliyeva 20 (First Medical Center daxilində)
  -Lənkəran ray., Mamusta kəndi
- **Referans Səyyar Ağstafa Filialı:** Ağstafa ray., Dəmiryolu vağzalı daxilində
- **Referans Naxçıvan Tibb Mərkəzi:** Naxçıvan şəhəri, 11-ci Məhəllə
- **Referans Tovuz Tibb Mərkəzi:** Tovuz ray., M.H.Şəhriyar küç. (Tovuz Rayon İcra Hakimiyyətinin yanı)

Referans AMBULANCE	Azərbaycanın ilk ÖZƏL Təcili Tibbi Yardım və Hava Ambulansı xidməti	*0003
ikinci nəfəs	Bizimlə tütünsüz həyata keç!	*3300
Referans EŞİTMƏ MƏRKƏZİ	Eşitmək **SƏNİN** haqqındır!	*0111
Referans Wellbeing Center	Hüceyrə səviyyəsində yanaşma...	*0033
TOLERANS	Sərhədsiz ünsiyyət üçün ilk addım..	
HEPATOLOJİ MƏRKƏZ	Sağlamlığınızı bizimlə qoruyun!	

Referans MEDICAL GROUP | Klinika Referans Medical Group daxilində fəaliyyət göstərir

info@referansclc.com
www.referansclc.com

Referans
Klinik Laboratoriya Mərkəzi
&
Poliklinik

Yenidoğulmuşların Metabolik Skrininq Testi

(Daban Testi)

Referans MEDICAL GROUP | Klinika Referans Medical Group daxilində fəaliyyət göstərir

*0033
ÇAĞRI MƏRKƏZİ

Yenidoğulmuşların metabolik skrininqi (daban testi) körpə doğulduqdan 3-5 gün (doğuş hamiləliyin 37-ci həftəsinə qədər olan zaman 7-14 gün) ərzində aparılır. Bu test üçün körpə dabanından bir neçə damcı qan götürülür və filtr kağızının üzərinə hopdurulur, qan quruduqdan sonra skrininq testi aparılır.

Skrininq Testinin İlk İki Həftədə Aparılmasının Məqsədi:

20-yə yaxın metabolik xəstəlik yenidoğulmuşun həyatının ilk 2 həftəsi ərzində geri dönüşü olmayan ağır fəsadlara və erkən ölümə səbəb ola bilər. Testin aparılmasının əsas məqsədi neonatal dövrdə metabolik xəstəliklərin aşkarlanması və körpədə bu səbəbdən yarana biləcək geri dönüşü olmayan fəsadların vaxtında qarşısının alınmasıdır.

Hər hansı klinik əlamətdən asılı olmayaraq aparılan skrininq test sağlam gələcəyimizin təminatı ola bilər.

Yenidoğulmuşların Metabolik Skrininqi Daxili Bu Testlər Aparılır:

- Neonatal TSH
- Neonatal G6PD
- Neonatal İRT
- Neonatal PKU
- Neonatal 17-OH progesteron
- Neonatal biotinidaza aktivliyi
- Neonatal GALT aktivliyi

Neonatal TSH

TSH-ın yüksək olması anadangəlmə HİPOTİREOZ yaradır ki, buda uşaqlarda:
•İnkişafdan qalma •boy qısalığı •halsızlıq •yorğunluq •letargiq yuxu •dəri quruluğu kimi klinik əlamətlərlə təzahür edir.

Neonatal İRT (immunoreaktiv tripsinogen)

İRT yenidoğulmuşların qanında hipertripsinemiya ilə müşahidə olunur və bu da KİSTİK FİBROZA səbəb olur (xarici sekresiya vəzilərinin zədələnməsi, tənəffüs və həzm sistemi orqanlarının funksiyalarının ciddi pozulmaları ilə xarakterizə olunan irsi xəstəlikdir).

Neonatal Biotinidaza Aktivliyi

Metabolik pozğunluqdur. Biotinidaza fermentinin aktivliyi azaldığı zaman bir sıra klinik əlamətlər ortaya çıxır. Bunlara aiddir:

- Hipotoniya
- Alopesiya
- Apnoe
- Konyuktivit
- Ataksiya
- Eşitmə zəifliyi
- İnkişafdan qalma
- Görmə problemləri

Neonatal Qlükoza-6-fosfat dehidrogenaza

Q6FD defisiti olduğu zaman bir sıra HEMOLİTİK ANEMİYALAR yaranır (oraqvari hüceyrə anemiyası, hemoqlobin S-C xəstəliyi və s.)

Neonatal 17-OH progesteron

- Anadangəlmə böyrəküstü vəzin hiperplaziyası
- Hirsutizm
- Qadınlarda sonsuzluq və tsiklin pozulması
- Böyrəküstü vəzin şişləri

Neonatal Fenilalanin

Fenilalanin hidroksilaz fermentinin çatışmazlığı nəticəsində bir sıra klinik əlamətlər ortaya çıxır:

- Əqli gerilik
- Süstlük
- Epilepsiya

Neonatal Galt Aktivliyi

QALAKTOZEMİYA
Yenidoğulmuşlarda əmmə zəifliyi, hemorragik diatez, sarılıq, inkişafdan qalma kimi əlamətlər müşahidə edilir.

Qan nümunəsinin götürülmə qaydaları:

- Nümunə götürüləcək nahiyə müvafiq antiseptik məhlulla silinərək steril bintlə qurulanmalıdır.
- Nümunə steril əlcəklə götürülməlidir.
- Qan nümunəsi yenidoğulmuşların əsasən daban nahiyəsindən, xüsusi hallarda isə barmaq və damardan götürülərək karta hopdurula bilər.
- Qan nümunəsi dabandan aşağıdakı şəkildə qeyd olunmuş qara rəngli hissədən götürülməlidir.
- Skarifikator ilə daban deşildikdən sonra ilk qan damlası steril bintə silinir, daha sonra isə böyük damla qan filtr kağızının işarələnmiş hissəsinə toxundurularaq (öndən və arxadan baxdıqda tam dolmasına qədər) hopdurulmalıdır.
- Körpənin ayağının ürək səviyyəsindən aşağıda tutulması venoz qanın axışını sürətləndirir və nümunənin daha rahat götürülməsinə kömək edir.